Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Food and Agriculture Organization of the United Nations

Globally Important AGRICULTURAL HERITAGE Systems

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Qlobal Əhəmiyyətli Aqrar İrs Sistemləri nədir?

GIAHS

**Aprel, 2021**



# Qlobal Əhəmiyyətli

# Aqrar İrs Sistemləri nədir?

Qlobal Əhəmiyyətli Aqrar İrs Sistemləri, həyat və biomüxtəliflikla dolu estetik gözəlliyin görkəmli mənzərələrinin yer aldığı sahələrdir. Bu sahələr əkinçilər, çobanlar, balıqçılar və meşə ilə əlaqəli insanlar tərəfindən idarə olunan və dəyərli mədəni irsə sahib olan davamlı ekosistemlər kimi çıxış edirlər. Burada müxtəlif və yerli şəraitə uyğunlaşdırılmış davamlı kənd təsərrüfatı sistemləri yerli icmalar tərəfindən bu günə qədər qorunmuş və inkişaf etdirilmişdir. Hazırki dövrdə belə sistemlər dünya üzrə milyonlarla insanı ərzaq və qeyri-ərzaq məhsulları, həmçinin xidmətlərlə və təhlükəsiz dolanışıqla təmin edirlər.

## FAO-GİAHS Proqramı nəyi əhatə edir?

FAO-GIAHS Proqramı Qobal Əhəmiyyətli Aqrar İrs Sistemlərinin aşkar edilməsi və bu sistemlərin fəaliyyəti nəticəsində formalaşan landşaft nümunələrinin, aqro-biomüxtəliflyin və biliklər sisteminin belə sistemlərin stimullaşdırılması və uzunmüddətli dəstək proqramının hazırlanması yolu ilə müahfizəsinə, həmçinin bu sistemlərin dinamik konservasiyası, dayanıqlı şəkildə idarə edilməsi və həyati qabiliyyətliliyinin artırılması vasitəsilə qlobal, regional və yerli faydaların genişləndirilməsinə istiqamətlənmişdir.


© FAO

http://www.fao.org/giahs/en/















# Necə GİAHS olmaq olar?

FAO-ya üzv ölkələr və ya digər maraqlı tərəflər potensial GIAHS məntəqələrinin namizədliklərini irəli sürə bilərlər. Bu zaman müvafiq icmaların prosesdə yaxından iştirakı və onların məsələ ilə bağlı razılıqlarının alınması tələb olunur.

Təklif, kənd təsərrüfatı fəaliyyətləri və sistemlərinin unikal təbiətini və özünəməxsus xüsusiyyətlərini dəqiq şəkildə izah etməlidir.

Bu xüsusiyyətlər təklif olunan məntəqənin aşağıdakı istiqamətlərdə əlamətdar xüsusiyyətlərini əhatə etməli, ancaq tək bu istiqamətlərlə kifayətlənməməlidir:

- Ərzaq və dolanışıq təhlükəsizliyi
- Aqro-biomüxtəliflik
- Yerli və Ənənəvi Bilik Sistemləri
- Mədəniyyətlər, Dəyərlər Sistemləri və Sosial Təşkilatları
- Landşaftlar və Dəniz Landşaftları.

Təklif olunan **GİAHS** məntəqələri həm bu kriteriyalar, həm dətəklif olunan məntəqənin dinamik konservasiyası məqsədilə işlənib hazırlanacaq Fəaliyyət Planı əsasında qiymətləndiriləcəkdir.
Fəaliyyət Planına daxil edilməsi tövsiyə olunan maddələr, təhdid və çağırışların təhlili və müvafiq maraqlı tərəflər tərəfindən GIAHS məntəqələrinin dinamik qorunmasının təşviq edilməsi məqsədilə hazırda həyata keçirilən və / və ya gələcəkdə həyata keçiriləcək siyasətlərin, strategiyaların, fəaliyyətlərin və nəticələrin ətraflı təsviri ola bilər.

# GİAHS olmanın üstünlükləri hansılardır?

- Ərzaq və dolanışıq təhlükəsizliyinə nail olmaq üçün hazırki və gələcək potensialın təmin edilməsi
- Aqrar sistemlərinin bilik və təcrübələrinin milli və qlobal siyasətə uyğunlaşdırılması
- İqlim dəyişikliklərinə adaptasiya, karbon udulması və biomüxtəlifliyin saxlanması yolu ilə dayanıqlı inkişafa nail olunması
- Aqroekosistemlərinin mühafizəsi ilə yanaşı, qloballaşma nəticəsində meydana çıxan problemlərin həllində ənənəvi və ailə-fermer təsərrüfatlarına dəstək göstərilməsi
- Aqrar irsin kənd təsərrüfatının inkişafı proqramlarına inteqrasiyası ilə bağlı siyasətlərin həyata keçirilməsi
- Ərzaq məhsullarının istehsalı və kənd təsərrüfatı fəaliyyətinin həyata keçirilməsi üçün biomüxtəlifikdən və genetik resurslardan dayanıqlı istifadənin stimullaşdırılması
- Çoxtərəfli əməkdaşlıqların və siyasət dəstəklərinin gücləndirilməsi
- Yerli məhsul və ərazilərlə bağlı milli və beynəlxalq səviyyələrdə məlumatlılığın və onların dəyərinin artırılması
- Aqroturizm obyektlərinin inkişaf etdirilməsi, məhsulların emalı və markalanması, habelə məşğulluq imkanlarının genişləndirilməsi üçün xüsusi investisiyaların cəlb edilməsi
- Yerli mədəniyyətin və təbii irsin qorunması ilə bağlı məlumatlılığın artırılması
- Təbii, sosial, insan və iqtisadi kapitalın möhkəmləndirilməsi nəticəsində yerli icmanın sağlamlıq və rifahının yaxşılaşdırılması.


© FAO



© FAO

# Azərbaycan Respublikasının şimal-qərb regionunda potensial GİAHS məntəqələrinin müəyyən edilməsi

Azərbaycanın şimal-qərb regionu (Qax, Zaqatala və Balakən rayonları) ölkənin ən qədim və coğrafi baxımdan zəngin bölgələrindən biridir. Bölgənin etnik quruluşu və yerli ənənələri çox müxtəlifdir və bu da burada müxtəlif əkinçilik təcrübələrinin formalaşmasına şərait yaratmışdır.

Bu layihənin məqsədi Azərbaycanın şimal-qərb regionunda kiçik-ölçülü kənd təsərrüfatını məhsulları istehsalçılarını dəstəkləyən və yoxsulluğun azaldılmasına töhfə verən effektiv və inklüziv aqro-ərzaq sistemlərinin inkişaf etdirilməsidir. Layihə, həmçinin regiondakı icma kənd təsərrüfatı məsləhət xidmətlərinin dəstəyi ilə aqro-ərzaq sistemlərinin inklüziv və effektiv inkişafı üçün biznes mühitinin gücləndirilməsini də hədəfləyir.

Layihə çərçivəsində hədəf regionunda dayanıqlı və inklüziv yerli aqro-ərzaq sistemlərinin, başqa sözlə desək, potensial GİAHS məntəqələrinin müəyyən edilməsi və qorunması planlaşdırılır. Bu, qismən unudulmuş ənənəvi kənd təsərrüfatı təcrübələrinə diqqət çəkilməsinə, habelə milli və qlobal səviyyədə regionun şöhrətinin artırılmasına imkan verəcəkdir. Bu yolla, regiona daha çox investorun və turistin, həmçinin ənənəvi kənd təsərrüfatı və istehsal sistemlərinin qorunmasına dəstəyin cəlb ediləcəyi gözlənilir.

Layihə çərçivəsində hədəf regionunda kənd təsərrüfatı irsi ilə bağlı mövcud stimullaşdırma siyasətləri və mexanizmlərinin qiymətləndirilməsi, habelə ərzaq və dolanışıq təhlükəsizliyinin qorunması ilə bağlı tənzimləyici siyasət tədbirlərinin müəyyən edilməsi əsasında maarifləndirmənin, həmçinin bilik və bacarıqların artırılması yolu ilə aqrar irs sistemlərinin zəruriliyinin milli və qlobal səviyyədə tanıdılması nəzərdə tutulmuşdur.

## FAO Azərbaycan Bakı ofisi

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycan üzrə Tərəfdaşlıq və Əlaqələndirmə ofisi**

**Ünvan:** 8-ci mikrorayon, 3123
**Əlaqə:** (+994)12 563 56 28
AZ 1115, Bakı, Azərbaycan
**Email:** FAO-AZ@fao.org
**Tvitter:** FAOAzerbaijan

## FAO Azərbaycan Qax ofisi

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Qax ofisi**

**Ünvan:** 53 İsmayıl Dağıstanlı küç.
AZ3400, Qax,Azərbaycan

**Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb.**
Məzmun BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycan üzrə Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin məsuliyyətidir və Avropa İttifaqının fikirlərini əks etdirmir.

**Bəzi hüquqlar qorunur.**
Bu iş CC BY -NC -SA 3.0 IGO lisenziyası altında mövcuddur.

© FAO, 2021
CB4500AZ/1/05.21